SİYASƏT

'Əli Kərimlinin əleyhinə çıxış etməsini istəyiblər' – Cəmil Həsənli bacısı oğlunun döyüldüyünü deyir

Noyabr 06, 2026



Cəmil Həsənli

Milli Şuranın sədri **Cəmil Həsənli** bildirib ki, dünən, noyabrın 5-də Biləsuvar rayonunda polis əməkdaşları idman zalına gələrək onun bacısı oğlu **Aqil Əliyev**i polis şöbəsinə aparıblar.

C.Həsənlinin noyabrın 6-da "Facebook" səhifəsində yaydığı məlumata görə, şöbədə bacısı oğlundan televiziyaya çıxıb Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) həbsdə olan sədri Əli Kərimlinin və özünün əleyhinə çıxış etməsi tələb olunub.

"Aqil bundan imtina etdiyi üçün onu amansızcasına döyüblər və iki qız övladı ilə təhdid ediblər", – Milli Şuranın sədri vurğulayıb.

Hələlik bu açıqlama ilə bağlı Biləsuvar rayon Polis Şöbəsi, Daxili İşlər Nazirliyi (DİN) və digər rəsmi qurumlardan münasibət öyrənmək mümkün olmayıb.

Amma buna qədər DİN insanların polisdə işgəncə və təhdidə məruz qalması ilə bağlı oxşar şikayətləri bir qayda olaraq təkzib edib.



5 noyabr

Milli Şuranın sədri ölkədən çıxışına 'stop' qoyulduğunu deyir

Milli Şuranın sədri **Cəmil Həsənli** ölkədən çıxışına qadağa ("stop") qoyulduğunu bildirib. O, bu barədə bu gün, noyabrın 5-də "Facebook" səhifəsində məlumat paylaşıb.

C.Həsənli vurğulayıb ki, 2027-ci il yanvarın 7-dən 10-na qədər Nyu-Orleanda Amerika Tarix Cəmiyyətinin 140-cı illik toplantısı keçiriləcək. Özü də həmin cəmiyyətin üzvü olduğundan bu tədbirə dəvət alıb.

Lakin Milli Şuranın sədri əlavə edib ki, Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyevin işi ilə əlaqədar 2025-ci il noyabrın 30-da istintaq orqanı (DTX) ölkədən çıxışına məhdudiyyət qoyaraq ondan şahid ifadəsi alıb: **"Ramiz Mehdiyevin məhkəmə prosesi oldu və bizi şahid kimi ora dəvət etmədilər. Bizim mövqeyimiz belə idi ki, nə Ramiz Mehdiyevin, nə də bir başqasının rəhbərliyi və ya iştirakı ilə ölkədə dövlət çevrilişi deyilən bir şey olub. Artıq məhkəmə başa çatıb. Bizim də məhkəmədə şahid kimi ifadə verməyimizi lazım bilməyiblər. Lakin stop stopluğunda qalır".**



İki aydan sonra - 2027-ci ilin yanvar ayının 7-dən 10-na qədər New Orleans-da (Louisiana ştatı) Amerika Tarix Cıməyyətinin (American Historical Association) 140-cı illik toplantısı (the 140th annual meeting) keçiriləcək. Bu cəmiyyətin üzvü olduğum üçün mən də həmin tədbirə dəvətliyəm.

Lakin Ramiz Mehdiyevin işi ilə bağlı 2025-ci ilin noyabr ayının 30-da bu işi aparan istintaq orqanı (DTX) ölkədən çıxışımıza qadağa qoyub bizdən şahid ifadəsi almışdı.

Məlum olduğu kimi Ramiz... See more

207 25 13

Hələlik bu açıqlama ilə bağlı cavabdeh rəsmi qurumlardan münasibət öyrənmək mümkün olmayıb.

R.Mehdiyev uzun illər Azərbaycan hakimiyyətində ən yüksək vəzifələrdən birini tutub. O, 1995–2019-cu illərdə Prezident Administrasiyasının rəhbəri, 2019–2022-ci illərdə isə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti vəzifəsində çalışıb.

Mehdiyev barəsində cinayət təqibinə 2025-ci ilin oktyabrında başlanılıb. Oktyabrın 14-də Səbail rayon Məhkəməsi onun barəsində dörd aylıq ev dustaqlığı qətimkan tədbiri seçib.

R.Mehdiyev Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət), 278.1-ci (hakimiyyəti zorla ələ keçirməyə cəhd) və 193-1.3.2-ci (cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması) maddələri ilə ittiham olunub. Onun ev dustaqlığının müddəti sonradan bir neçə dəfə uzadılıb. Ötən ay isə məhkəmə istintaqı yekunlaşıb və R.Mehdiyev (yaşı və səhhətindəki problemlər əsas gətirilərək) 14 il şərti həbs cəzasına məhkum edilib.



Milli Şuraya daxil olan Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) sədri **Əli Kərimli** və onun müavini **Məmməd İbrahim** də ötən il noyabrın sonunda həbs olunublar. Onların ilkin olaraq R.Mehdiyevlə bağlı açılmış cinayət işi çərçivəsində saxlanıldığı bildirilsə də, sonradan bu işlər icraatdan ayrılıb. Onlar hakimiyyəti zorla ələ keçirməyə yönələn hərəkətlərdə günahlandırılırlar. Hazırda məhkəmələri gedir və ittihamı qəbul etmirlər.

Xatırlatma

Dövlət Təhlükəsizliyi Xidməti (DTX) 2026-cı il fevralın 12-də bu işlə bağlı geniş bəyanat yayıb. Qurumun məlumatında Ramiz Mehdiyevlə yanaşı, keçmiş baş nazirin birinci

müavini Abbas Abbasov, AXCP sədri Əli Kərimli, partiya üzvü Məmməd İbrahim və daha bir neçə şəxsin adı çəkilirdi. DTX iddia edir ki, həmin şəxslərin bir qismi xarici xüsusi xidmət orqanlarının dəstəyi ilə Azərbaycanda dövlət hakimiyyətinin zorla ələ keçirilməsi və konstitusiya quruluşunun dəyişdirilməsi istiqamətində fəaliyyət göstərib. AXCP rəhbərlərindən savayı, adları çəkilən digər şəxslər bu ittihamlara reaksiya verməyiblər.

Buna da bax:

Əli Kərimli və Ramiz Mehdiyevin işləri ayrıldı

Xalq Cəbhəsi üzvünə 30 sutka həbs verildiyi deyilir

Əli Kərimlinin məhkəməsi başlayıb, bəzi jurnalistlər və fəallar prosesə buraxılmayıb

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur